**Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi”ndən**

**ÇIXARIŞ**

**Maddə 21-1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin hesabatı, Azərbaycan Respublikasının Hesablama Palatasının illik hesabatı, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkilinin (ombudsmanın) illik məruzəsi, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi, İnformasiya Məsələləri üzrə müvəkkilin hesabatı, İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı, gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanının illik məlumatı**

Azərbaycan Respublikası Hesablama Palatasının Daxili Nizamnaməsinin 25.3-cü maddəsinə uyğun olaraq **Hesablama Palatası** onun fəaliyyəti haqqında illik hesabatları Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edir.

**Maddə 44. Milli Məclisin Hesablama Palatası**

Azərbaycan Respublikası Konstitusiyasının 92-ci maddəsinə əsasən, Milli Məclis Hesablama Palatası yaradır. Hesablama Palatası Milli Məclisə hesabat verən daimi fəaliyyət göstərən dövlət büdcə nəzarəti orqanıdır.

Hesablama Palatası sədrdən, sədr müavinindən və 7 auditordan ibarətdir.

Hesablama Palatasının sədri, sədr müavini və auditorları dövlət idarəçiliyi, dövlət nəzarəti, iqtisadiyyat, maliyyə sahələrində iş təcrübəsinə malik olan ali təhsilli şəxslər olmalıdır.

Hesablama Palatasının sədri, sədr müavini və auditorları Milli Məclisin Sədrinin təqdimatı əsasında Milli Məclis tərəfindən təyin olunurlar.

Hesablama Palatasının sədrliyinə, sədr müavinliyinə namizədlər Milli Məclis qarşısında çıxış edirlər. Deputatlar onlara suallar verə, təklif olunan namizəd barəsində öz fikirlərini bildirə, namizədin lehinə və ya əleyhinə çıxış edə bilərlər.

Hesablama Palatasının auditorları Milli Məclisə qısa məlumatla təqdim olunurlar. Hesablama Palatasının sədrinin, sədr müavininin, auditorlarının vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə qərar Milli Məclisin azı 63 deputatının səs çoxluğu ilə qəbul edilir.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 17 may 1996-cı il**
**№ 74-IQ**